**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# RABİTƏ XİDMƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Albina Çingiz qızı Həşimova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Fərhad Pənah oğlu Rəhmanov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Natiq Əli oğlu Cavadov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərviz Səməd oğlu Həsənov**

iqtisad üzrə fəlsəfə doktoru
**Emil Filman oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: __________ imza — iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

Dissertasiya şurasının elmi katibi: __________ imza — iqtisad üzrə fəlsəfə doktoru
**Suqra İnqilab qızı Hümbətova**

Elmi seminarın sədri: __________ imza — iqtisad elmləri doktoru, dosent
**Ramil Zahid oğlu Hüseyn**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Rabitə, iqtisadiyyatın mühüm sahələrindən biri kimi, bütün dövlət və təsərrüfat strukturlarının fəaliyyətinə və ahəngdar surətdə çalışmasına xidmət edir. Bu, ən gəlirli və dinamik inkişaf edən bazarlardan biridir. Eyni zamanda, o, iqtisadi inkişafın ən vacib elementi olaraq, Azərbaycanın dünya informasiya və iqtisadı fəzasına daxil olmasının təməlini təşkil edir. İstehsalın strukturu və miqyaslarında qlobal dəyişikliklər, elmi-texniki tərəqqinin sürətlənməsi, əhalinin işgüzar fəallığının artması, cəmiyyətin mədəni və təhsil səviyyəsinin yüksəlməsi, beynəlxalq və milli səviyyələrdə rabitə əlaqələri genişlənir, nəticədə rabitə sahəsinin əhəmiyyəti sürətlə artır.

Son dövrdə rabitə sahəsi respublikanın milli sərvətinin tərkibinə daxil olan ehtiyatlardan biri kimi nəzərdən keçirilir.

Azərbaycan iqtisadiyyatında rabitə bazarı xüsusi rol oynayır, çünki bu sektorun əsas vəzifəsi informasiya axınlarının ötürülməsi ilə bağlı cəmiyyətin tələbatını təmin etməkdir.

Respublikada bazar münasibətləri inkişaf etdikcə, rabitə xidmətlərinin rolu daima artacaqdır, çünki keyfiyyətli rabitə infrastrukturu bazar münasibətlərinin mühüm tərkib hissəsi olaraq, inkişafı sürətləndirən güclü katalizatordur. Eyni zamanda, rabitə xidmətləri uğurlu kommersiya fəaliyyətinin mühüm təminatçısı kimi çıxış edir.

Bu səbəbdən də, rabitənin tənzimlənməsi və inkişafı problemlərinə dair elmi tədqiqatların əhəmiyyəti durmadan artır. Qeyd olunan problemlərin həlli rabitə sahəsinin istehsal potensialının yüksəlişinin mühüm amili olaraq, iqtisadi islahatların dərinləşməsinə, respublikanın telekommunikasiya sisteminin Qlobal informasiya infrastrukturuna və dünya telekommunikasiya sisteminə daxil olmasına imkan verir.

Yuxarıda söylənilənlər tədqiqat mövzusunun aktuallığını elmi və praktiki baxımdan şərtləndirir.

**Problemin öyrənilmə səviyyəsi**. Rabitə müəssisələrinin işinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi və sahədə bazar münasibətlərinin təşəkkülü probleminin tədqiqinə bir çox tanınmış xarici alimlərin əsərləri həsr olunmuşdur. Bunlardan L.E.Varakini, D.V.Vasilyevi,Y.A.Qolubitskayanı,S.A.Klepikovu,T.A.Kuzovkovan,

V.V.Makarovu,M.Mülleri,E.K.Razroyevi,L.D.Reymanı,V.N.Solovyovu,N.Y.Çetırkini,A.N.Bayrambekovanı,Y.B.Balyakinanı,A.İ.Bakıtovanı,J.M.Bekmambetovanı,N.A.Vişnyakovanı,A.M.Qaysini,A,A.Qolubevi, A.S.Zubkovu, A.P.Düsebayevanı, Y.N.Zaxarovanı, N.Y.Zoranı, İ.A.Kazaçanskini, A.V.Karmeli, L.A.Kistanovanı, Q.Y.Kobrinskini, T.A.Kuzovkovanı, D.V.Kuliçkovanı, K.S.Muxadiyevanı, T.A.Perşini, İ.Y.Samanı, A.M.Somovu, D.S.Staroverovu, T.F.Şərifyanovu, A.Y.Şastitko, L.A. Allakhverdievanı, C.Blackman, A.Fotouhi, M.Lewandowski, L.Montenegro, A.Otsetovanı, R.Zhao və b. göstərmək olar.

Azərbaycan iqtisadiyyatının infrastruktur sahələrinin, o cümlədən rabitə sahəsi məsələlərinin tədqiqinə ölkə alim və mütəxəssislərinin – Ə.Abbasovun, Q. Cəfərovun, C.Cəfərovun, M.Əhmədovun, A.Əliyevin, H.Əliyevin, Ə.Əlirzayevin, A.Əsədovun, E.Atayevin, B.Axundovun, Ə.Babayevin, Q.İmamverdiyevin, Ə.Qəhrəmanzadənin, A.Həsənovun, B.İbrahimovun, N.İsmayılovun, N.Nəsrullayevin, Ş.Məsimzadənin, Ə. Muradovun, Ş.Muradovun, V.Novruzovun,F.Rəhmanovun, Z.Səmədzadənin, A.Şəkərəliyevin, X. Süleymanovun, E.Süleymanovun və b. elmi əsərləri həsr edilmişdir.

Bu alimlərin elmi əsərlərində xidmət sektorunun, o cümlədən də rabitə sahəsinin fəaliyyətinin bir sıra aktual məsələləri öz əksini tapmışdır.

Bununla belə, ETT, müntəzəm olaraq, rabitə xidmətlərinin nomenklaturasına, rəqabət şəraitinə, müştərilərə təqdim edilən xidmətlərin metod və formalarına müxtəlif cür dəyişikliklər gətirir. Bundan əlavə, daim inkişafda olan iqtisadi-təşkilati münasibətlər həm ayrı-ayrı müəssisələrin, həm də rabitə sahəsinin bütövlükdə tənzimlənməsinin təkmiləşdirilməsini tələb edir. Yuxarıda deyilənlərdən belə nəticə əldə etmək olar ki, qarşıya qoyulmuş elmi problemin ciddi tədqiqi ölkə iqtisadiyyatında və təsərrüfatçılıq praktikasında müasir inkişaf reallıqlarının nəzərə alınmasını tələb edir. Azərbaycan iqtisadiyyatının innovasiyalı inkişaf yoluna keçidi şəraitində rabitə xidmətləri bazarının formalaşması və inkişafı məsələləri də öz həllini tapmalıdır.

Rabitənin tənzimlənməsi sahəsində səmərəli təşkilati-iqtisadi tədbirlərin hazırlanması ilə bağlı praktiki məsələlərin həllinin xüsusi

əhəmiyyəti dissertasiya tədqiqatının mövzusunun, məqsəd və vəzifələrinin seçimini şərtləndirdi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan Respublikasında rabitə xidmətləri sahəsinin təşkilati-iqtisadi mexanizminin tənzimlənməsinə dair nəzəri və praktiki tövsiyələrin hazırlanmasıdır.

Bu məqsəddən çıxış edərək, dissertasiyada aşağıdakı vəzifələr qoyulmuş və həll edilmişdir**:**

- respublikada bazar iqtisadiyyatı inkişafının müasir mərhələsində rabitə xidmətlərinin məzmununu və xüsusiyyətlərini dəqiqləşdirmək;
- təsərrüfatçılığın müasir şəraitində rabitə sahəsinin inkişaf amillərini müəyyənləşdirmək;
- rabitə xidmətləri bazarının dövlət tənzimlənməsinin forma və metodlarını tədqiq etmək;
- müasir şəraitdə rabitə xidmətləri bazarının formalaşmasının başlıca prinsplərini müəyənləşdirmək və sistemləşdirmək;
- rabitə xidmətləri sahəsinin inkişafının aparıcı meyllərini müəyyən etmək, telekommunikasiya sahəsində universal xidmət mexanizminin yaradılması zərurətini əsaslandırmaq;
- rabitə xidmətlərinin təqdimatı sferasında rəqabət mühitinin yaranması proseslərini tədqiq etmək;
- rabitə sahəsinin inkişaf konsepsiyasını hazırlamaq və onun reallaşdırma istiqamətlərini əsaslandırmaq;
- rabitə göstəricilərinin proqnozlaşdırılmasına metodik yanaşmaları işləyib hazırlamaq və Azərbaycanda rabitənin inkişaf perspektivlərini qiymətləndirmək;
- rabitə xidmətlərində keyfiyyət yüksəlişini təmin edən, rabitə sahəsinin tənzimlənməsinin forma və metodlarının təkmilləşdirilməsinin prioritet istiqamətlərini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti** – Azərbaycan Respublikasının rabitə sahəsi və rabitə xidmətləri təqdim edən müəssisələrdir.

**Tədqiqatın predmeti** – rabitə sahəsinin tənzimlənməsinin nəzəri, metodiki və praktiki məsələlərinin məcmusudur.

**Tədqiqatın metodları.**

Tədqiqatın nəzəri və metodoloji bazasının əsasını rabitənin

fəaliyyəti problemlərinə, rabitə xidmətləri bazarının inkişafına dair ölkə və xarici alimlərin əsərləri, telekommunikasiyaların fəaliyyətini reqlamentləşdirən qanunverici və digər normativ aktlar, idarəetmə orqanlarının sənədləri, iqtisadi nəzəriyyənin, idarəetmə nəzəriyyəsinin, marketinq və menecmentin fundamental müddəaları təşkil edir.

Dissertasiya tədqiqatında qoyulan nəzəri və əməli məsələlərin həlli üçün, elmi tədqiqat metodlarından istifadə olunmuşdur: sistemli yanaşma, analiz və sintez, statistik və ekspert metodları, elmi abstraksiya metodu, göstəricilərin qruplaşdırma metodu, dinamik və proqnoz sıralarının təhlili, statistik göstəricilərin cədvəl və qrafik təsviri, təşkilati modelləşdirmə metodu və s.

Statistik məlumatların emal olunmasında məlumatların emalı üçün "SPSS" tətbiqi proqramlar analitik paketlərindən istifadə olunmuşdur.

**Tədqiqatın informasiya təminatını** Dövlət Statistika Komitəsinin statistik topluları, Beynəlxalq Elektrorabitə İttifaqının materialları, Azərbaycan Respublikası nazirlik və təsisatlarının materialları təşkil edir. İşdə, həmçinin, tədqiqatın problematikasına dair nəşr olunmuş tədqiqatlardan, monoqrafiya və məqalələrdən, dövri nəşriyyatın və İnternet saytlarının tədqiqatın mövzusu ilə bağlı materiallarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

Müdafiəyə yeni yaxud yenilikçilik elementlərini ehtiva edən aşağıdakı əsas müddəalar çıxarılır:

1. Rabitə xidmətlərinin istehlakçıları və istehsalçılarının mövcud olma mühitini səciyyələndirən, xidmətlərin təklifini və istifadəçilərin davranışını formalaşdıran rabitənin inkişafının əsas daxili və xarici amillər sistemi.

2. İdarəetmə subyektinə görə rabitə sahəsinin inkişafının tənzimlənməsinə dair metodiki yanaşmaların xarakteristikası və sistemləşdirilməsi.

3. Azərbaycanın rabitə sahəsinin ümumilikdə, habelə rabitə növləri və informatizasiya üzrə inkişaf dinamikasının təhlili, bu sahənin dayanıqlı inkişafını təmin edən əsas amillərin müəyyənləşdirilməsi.

4. Azərbaycanın rabitə sahəsində baş verən bazar proseslərinin

dövlət tənzimləməsi və nəzarəti mexanizmi.

5. Respublikanın rabitə sferasının inkişafı konsepsiyasının qəbul olunan idarəetmə qərarlarının operativliyini və nəticə etibarilə səmərəliliyini artırmağa imkan verən struktur-məntiqli modeli.

6. Respublikanın rabitə sahəsinin ümumilikdə və onun ayrı-ayrı seqmentlərinin göstəricilərinin proqnozu modeli.

7. Azərbaycanın rabitə sahəsinin tənzimlənmə mexanizminin təkmilləşdirilməsi modeli, həmin modeldə rabitə xidmətləri çeşidinin genişləndirilməsinə, onların keyfiyyətinin yüksəldilməsinə, respublikanın rabitə sahəsinin məhsulları və xidmətləri bazarında infrastrukturun və rəqabət mühitinin inkişafına səbəb olan iqtisadi, təşkiledici, hüquqi və institusional xarakterli tədbirlər müəyyən edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** bundan ibarətdir ki, işdə ilk dəfə Azərbaycanın rabitə sahəsinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi problemlərinin kompleks şəklində tədqiqi həyata keçirilmiş, həmin sahənin perspektiv üçün innovativ inkişafı parametrlərinin elmi əsaslandırılması verilmiş, və bunun sayəsində respublikada sosial-iqtisadi transformasiyalar haqqında elmi təsəvvürlər genişləndirilmişdir.

Tədqiqatın elmi yeniliyini təşkil edən əsas nəticələrə aşağıdakıları aid edə bilərik:

- xidmətlərin təklifini və istifadəçilərin davranışını formalaşdıran rabitə xidmətlərinin istehlakçıları və istehsalçılarının mövcud olma mühitini daha yüksək dərəcədə səciyyələndirən rabitənin inkişafının əsas daxili və xarici amilləri təyin edilmiş və sistemləşdirilmişdir; bu amillərin uçotu respublikanın rabitə göstəricilərinin proqnozlarının doğruluq səviyyəsini artırmağa imkan yaradır.
- respublikada rabitə xidmətlərinə ödəmə qabiliyyətli tələbin stimullaşdırılmasına və təklifin optimallaşdırılmasına səbəb olan rabitə müəssisələrinin dövlət tərəfindən dəstəklənməsinin daha səmərəli və effektiv formalarının seçimini həyata keçirməyə imkan verən rabitə sahəsinin tənzimlənməsi metodları ilə bağlı yerli və xarici təcrübə ümumiləşdirilmişdir.
- rabitə xidmətləri qarşısında dayanan vəzifələrin konkretləşdirilməsi məqsədilə idarəetmə subyekti üzrə, yəni idarəetmənin müxtəlif

funksiyalarına uyğun olaraq tənzimlənmə üsullarının əlamətlərinə görə rabitənin tənzimlənməsi metodlarının təsnifatı təklif edilmişdir. Təqdim edilmiş tənzimlənmə metodları rabitənin inkişfı proseslərinin həyata keçirilməsinin məzmununu və formasını adekvat surətdə əks etdirməyə imkan verir.

- Respublikanın rabitə sahəsində baş verən bazar proseslərinin dövlət tərəfindən tənzimlənməsi və nəzarət olunması mexanizmi aşkar edilmiş və səciyyələndirilmişdir.
- Azərbaycanın rabitə sahəsinin ümumilikdə, habelə rabitənin və informasiyanın ayrı-ayrı növləri üzrə inkişafının əsas tendensiyalarının təhlili həyata keçirilmiş, rabitə operatorlarının fəaliyyətinin daxili və xarici amilləri xarakterizə olunmuş, rabitə sahəsində göstərilən xidmətlərə əhalinin və milli iqtisadiyyatın müxtəlif sahələrinin təsərrüfat strukturlarının tələbatlarının formalaşma və inkişaf xüsusiyyətləri müəyyən edilmiş, sözügedən sahənin dayanıqlı inkişafını təmin edən açar amillər üzə çıxarılmışdır ki, bu da ən yaxın və daha uzaq perspektiv üçün rabitə sahəsinin struktur tərkib hissələrinin həcmini və inkişaf templərini sonradan xarakterizə etməyə imkan yaradır.
- rabitə sahəsinin tənzimlənməsinə dair vahid nəzəri yanaşmanın formalaşdırılması məqsədilə müəllif tərəfindən respublikanın Rabitə inkişafının konsepsiyası təklif edilmiş, onun məqsədi, əsas istiqamətlər və elementləri, problemli sahə, eləcə də respublikada rabitənin inkişafı ilə bağlı baş verən proseslərin ümumi nəzəri dərkindən ibarət və rabitə sahəsinin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi əsasında dayanan metodoloji prinsiplər xarakterizə edilmişdir. Rabitə sahəsinin inkişafı konsepsiyası belə bir alətə çevriləcək ki, onun istifadəsi rabitə və İKT sahəsində birinci dərəcəli və sosial baxımdan əhəmiyyətli layihələrin həyata keçirilməsi məqsədilə rabitə operatorları ilə dövlət orqanlarının effektiv qarşılıqlı fəaliyyətini həyata keçirməyə imkan verəcək, habelə dövlət-özəl tərəfdaşlığının reallaşdırılması üçün ilkin şərtlərin yaradılmasına xidmət edəcəkdir.
- rabitə sahəsinin və onun ayrı-ayrı seqmentlərinin inkişafının üzə çıxarılmış xarakterinin və qanunauyğunluqlarının nəzərə alınması ilə proqnoz hesablamalar sistemi işlənib hazırlanmış və aprobasiya

edilmişdir ki, həmin sistem rabitə sahəsinin perspektivli vəziyyətini adekvat surətdə təsvir edir və proqnozların konkret spesifik məsələlərin mərhələli şəkildə öz həllini tapdığı qarşılıqlı surətdə əlaqəli bloklardan ibarətdir.

- Respublika iqtisadiyyatının inkişafının strateji prioritetlərinə uyğun olaraq, rabitə sahəsinin tənzimlənməsi istiqamətində tətbiq edilə biləcək mexanizmin təkmilləşdirilməsi modeli işlənib hazırlanmışdır ki, bu da rabitənin tədqiq edilən seqmentləri və sahənin digər xarakteristikaları üzrə transformasiya hərəkətlərinin çərçivəsinin cizgilərini yaratmağa imkan verir. Modeldə rabitə sahəsinin Azərbaycan sosial-iqtisadi sisteminin yüksəkeffektli və rəqabətqabiliyyətli seqmentlərindən birinə transformasiya olunması məqsədilə həmin sahənin təşkiledici-idarəetmə mexanizminin təkmilləşdirilməsi üzrə fəaliyyətin müəllif tərəfindən təklif edilən açar istiqamətləri xarakterizə edilmişdir.

**Tədqiqat işinin nəzəri əhəmiyyəti** rabitə sahəsinin tədqiqinin nəzəri bazasının genişləndirilməsi və onun inkişaf etdirilməsindən, habelə bütöv, intensiv surətdə inkişaf edən sistem kimi rabitə haqqında mövcud elmi biliklərin sistemləşdirilməsi və genişləndirilməsindən ibarətdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, işdəki metodoloji yanaşmalar və əməli tövsiyələr rabitə sahəsində siyasət hazırlanarkən, dövlət orqanlarının müxtəlif səviyyələrində – milli, regional səviyyələrdə, həmçinin də, rabitə sahəsi müəssisələri tərəfindən marketinq tədqiqatları zamanı, xidmətlərin çeşidini genişləndirərkən və onların keyfiyyətini yüksəltmək üçün istifadə edilə bilər.

Dissertasiyanın ən vacib müddəa və qənaətləri Azərbaycan İdman Akademiyasının və Dövlət Gömrük Komitəsinin Akademiyasının tədris prosesində istifadə edilir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.**

Dissertasiyanın analitik əsasının, ifadə olunmuş müddəaların və tövsiyyələrin əsaslandırılması və doğruluğu dissertasiya işinin elmi tədqiqatların ümumi məntiqinə uyğunluğu ilə müəyyənləşdirilmiş, habelə rabitə iqtisadiyyatı sahəsində yerli və xarici alimlərin klassik və müasir elmi işlərinin, iqtisadiyyat və xalq təsərrüfatı idarəçiliyi

sahəsində aparıcı institutların rəsmi statistikası və işləmələrin istifadəsi ilə, eləcə də beynəlxalq və milli elmi-praktiki konfranslarda tədqiqatın nəticələrinin müzakirəsi ilə təmin edilmişdir.

Dissertasiyanın əsas müddəaları və ayrı-ayrı nəticələri beynəlxalq, respublika elmi konfranslarında və semirnarlarda, o cümlədən, II. Uluslararasi 19 Mayis Yenilikçi Bilimsel Yaklaşımlar Kongresi (Türkiye, Samsun-2019), III. Uluslararası Battalgazi Bilimsel Çalışmalar Kongresi. (Türkiye, Malatya-2019), International Paris Conference On Social Sciences – IV (Fransa, Paris-2020), EU 2 nd İnternational Conference On Health, Engineering and Applied Sciences (Serbiya, Belqrad-2023) şərh edilmiş, müzakirə olunmuş və bəyənilmişdir.

Dissertasiyadakı elmi nəticələr məqalələrdə, elmi məruzələrin tezislərində, və elmi-metodik ədəbiyyatda nəşr olunmuşdur. Dissertasiyanın əsas müddəaları, ümumi həcmi 7,4 çap vərəqi olan 24 nəşrlərdə ifadə edilmişdir.

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və sosial problemlər üzrə elmi-tədqiqat və tədris mərkəzində yerinə yetirilmişdir.

**Tədqiqat işinin strukturu və həcmi.** Dissertasiya işi girişdən (16091 işarə), 3 fəsildən (I fəsil – 92873 işarə, II fəsil – 90964 işarə, III fəsil – 82740 işarə), nəticədən (9246) ibarətdir. 19 sxem, 18 cədvəl, 3 qrafiki və 183 adda ədəbiyyat siyahısı istisna olmaqla dissertasiya işi 271009 işarədən ibarətdir.

## Dissertasiya işinin strukturu

Giriş
Fəsil 1. Rabitə xidmətlərinin tənzimlənməsinin nəzəri-metodoloji əsasları
1.1. Rabitə xidmətlərinin mahiyyəti və təşkilati-iqtisadi xüsusiyyətləri
1.2. Rabitə xidmətləri bazarı
1.3. Rabitə xidmətlərinin dövlət tənzimlənməsi
1.4. Rabitə sahəsinin tənzimlənməsində beynəlxalq təcrübə

Fəsil 2. Rabitə sahəsinin inkişafının təşkilati-iqtisadi problemləri
2.1. Azərbaycanda rabitə sahəsinin vəziyyəti və inkişaf təmayüllərinin təhlili və qiymətləndirilməsi
2.2. Rabitə sahəsində bazar proseslərinin tənzimlənməsi mexanizmi
2.3.İşğaldan azad edilmiş ərazilərdə rabitə sektorunun müasir vəziyyəti

Fəsil 3. Rabitə xidmətləri sahəsinin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri
3.1. Rabitə sahəsinin inkişaf etdirilməsi konsepsiyası və onun reallaşdırılması istiqamətləri
3.2. Rabitə xidmətlərinin göstəricilərinin proqnozu
3.3. Rabitə xidmətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinin perspektiv istiqamətləri

Nəticə
İstifadə olunmuş ədəbiyyat
Əlavə

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

### 1. Rabitə bazarının tənzimlənməsinin metodoloji əsaslarının tədqiqi

Dissertasiyada anlayışlar aparatının formalaşmasının və elmi yanaşmaların xüsusiyyətləri, həmçinin, rabitə sahəsinin tədqiqinin nəzəriyyəsi, metodologiyası və praktikası tədqiq edilir. Rabitə sahəsinin funksiyaları, fəaliyyət məqsədi, həmçinin, rabitə xidmətlərinin mahiyyəti və təşkilati-iqtisadi xüsusiyyətləri səciyyələndirilir.

Rabitənin də, digər infrastruktur sahələri: nəqliyyat, energetika, qaz təsərrüfatı və digər təsərrüfat sahələrində olduğu kimi, infrastruktur sahələrinə xas olan bütün fərqli xüsusiyyətləri vardır. Eyni zamanda sahəyə məxsus özəl xüsusiyyətlər də diqqəti cəlb edir.

Rabitə sahəsinin ən mühüm xüsusiyyətlərindən biri odur ki, bu sahədə son məhsul qeyri maddi xarakter daşıyır, xidmət formasında çıxış edərək xidmətlərin istehsalı prosesi ilə istehlakı prosesi eyni zamanda baş verir, informasiyanın verilməsinin iki tərəfliliyi, onun zaman müstəvisinə qeyri-bərabər daxil olması və ancaq məkanın dəyişilməsi zərurəti kimi xüsusiyyətləri də vardır. [1]

Yuxarıda göstərilən xüsusiyyətlər rabitə xidmətləri göstərən sferanın ayrı-ayrı növlərinin və yarımsahələrinin, həmçinin telekommunikasiya şəbəkəsi elementləri və halqalarının kompleks və bir-birinə proporsional inkişaf etdirilməsi zərurətini şərtləndirir.

Əsərdə qeyd edilir ki, rabitə sahəsində bazar münasibətlərinin formalaşması və inkişafı prosesinin istehsalın və xidmətlərin istehlakının spesifikasından asılı olaraq bir sıra mühüm xüsusiyyətləri vardır. Həmin xüsusiyyətlər rabitə xidmətləri bazarı tədqiq olunarkən mütləq nəzərə alınmalıdır ki, onların əsasında rabitə sahəsinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri, üsul və mexanizmləri müəyyənləşdirilir.

Deyilənlərlə yanaşı qeyd etmək lazımdır ki, həmin xüsusiyyətlər son məhsulun yaradılması, həmin məhsulun istehsalının təşkil edilməsinin texnoloji xüsusiyyətləri və bütünlükdə rabitənin infrastruktur sahəsi kimi digər xüsusiyyətlərindən asılıdır.

Belə bir vəziyyət isə öz növbəsində rabitə bazarının vəziyyəti və

---

[1] *Голубицкая, Е.А. Экономика связи: учебник для студентов вузов; - М.ИРПИАС, – 2006, – 488с.*

inkişafı ilə bağlı spesifik araşdırma üsullarının tətbiq edilməsini, rabitə sferasında əmək məhsuldarlığının yüksəldilməsi, yüksək keyfiyyətləri olan şəxsi və ictimai tələbatların tam olaraq təmin olunması üçün bazar tənzimləyicilərindən daha səmərəli və tam istifadə olunmasını tələb edir.[2]

Geniş məzmunda rabitə bazarının araşdırılması problemi marketinq araşdırmalarının bir hissəsidir, tərkibinə aşağıdakılar daxildir:

1) Bazar proseslərinin və bazar faktorlarının bazar elementlərinə (tələb, təklif) təsirinin öyrənilməsi, onların qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi;

2) Həmin problemdən irəli gələn bazar elementlərinin vəziyyətinin qiymətləndirilməsi;

3) Bazar proseslərinin və bazar elementlərinin perspektiv vəziyyətlərinin proqnozlaşdırılması.[3]

Bu məsələlərin həlli tələb və təklifin real həcmi, strukturu, onların tarazlıq səviyyəsi haqqında real təsəvvürlər əldə etməyə, bazar mexanizmlərinin fəaliyyətinin səbəb-nəticə əlaqələrini və gələcək vəziyyətini müəyyənləşdirməyə imkan yaradır.

Rabitə bazarının araşdırılmasına məqsədli yanaşma zamanı tədqiqat prosesi məlumatların əldə edilməsi, emalı və təhlilindən ibarətdir.

Rabitə bazarının tədqiqi metodologiyasının tətbiqi əhəmiyyəti – operator-şirkətləri bazar prosesinin mühüm tərkib hissələrinin inkişaf meylləri, keyfiyyət dəyişiklikləri və dinamikası barədə məlumatların alınması və məqsədyönlü araşdırılması üçün alətlərlə təmin etməkdən ibarətdir. Bu informasiya, müxtəlif istehlakçı qruplarının və ümumiyyətlə bazarın tələblərinin tam həcmdə ödənilməsi və bununla yanaşı maksimal iqtisadi mənfəətin alınmasına xidmət edən alqı-satqı fəaliyyətinin həyata keçirilməsi üçün zəruridir.

Ümumi şəkildə rabitə xidmətləri bazarının kompleks tədqiqi prosesi bir neçə qarşılıqlı əlaqəli istiqamətlərdən ibarətdir (sxem 1)

---

[2] *Методические рекомендации по организации маркетинговой деятельности акционерных обществ электросвязи и изучению рынка услуг. –М. Минсвязи России, – 2009*

[3] *Резникова, Н.П. Маркетинг в телекоммуникациях. –М.ЭКО-Трендз, –2002.*




**Sxem 1. Rabitə bazarının kompleks araşdırılmasının əsas istiqamətləri**

*Mənbə:Araşdırma nəticəsi olaraq müəllif tərəfindən tərtib edilib*

Bizim fikrimizcə, rabitə xidmətləri sahəsinin vəzifələrinin konkretləşdirilməsi üçün idarəetmə subyektinə görə tənzimləmə üsullarının müxtəlif idarəetmə funksiyalarına uyğun olaraq təsnifatından istifadə edilməsi məqsədəuyğun olardı. Adı çəkilən təsnifat sxem 2-də verilmişdir.




**Sxem 2. Rabitə xidmətlərinin dövlət tənzimlənməsi üsullarının funksional əlamət üzrə təsnifatı**

*Mənbə: Araşdırma nəticəsi olaraq müəllif tərəfindən tərtib edilib*

Bu təsnifatda tənzimləmə üsulları iqtisadi, hüquqi, təşkilati üsullara bölünür.

Təsnifatın funksional əlamətləri rabitə sahəsinin fəaliyyətinin aspektləri kimi çıxış edirlər. Bu səbəbdən də təqdim edilən üsullar inkişaf prosesinin məzmunu və reallaşdırılması formasını özündə əks etdirir. Məsələn, tənzimlənmənin iqtisadi üsullarında şəbəkələrin qoşulması üçün tariflərin hesablanılması modeli, təşkilati metodlar çərçivəsində şəbəkələr arası qarşılıqlı əlaqənin xarakteri müəyyənləşdirilir, hüquqi üsullar əsasında isə hüquqi-normativ sənədlər hazırlanır və təsdiq edilir, həmin sənədlərin vasitəsi ilə şəbəkələrin qoşulması qaydaları reqlamentləşdirilir.

Beləliklə, müasir və inkişaf etmiş rabitə bazarının yaradılması

üçün səmərəli dövlət siyasətinin hazırlanaraq həyata keçirilməsinə ehtiyac vardır.[4] Belə bir zərurət özünü daha çox rabitə xidmətləri bazarında operatorların fəaliyyətini tənzimləyən normativ bazanın yaradılması, rabitə xidmətləri üçün ədalətli qiymətlərin müəyyənləşdirilməsi, rabitə şirkətini infrastrukturun inkişafına sövq edən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi ilə bağlı hiss etdirir.

## 2. Rabitə sahəsinin inkişafının təşkilati-iqtisadi problemlərinin təhlili

İşdə respublikanın rabitə sahəsinin əsas seqmentlərinin inkişaf dinamikası və müasir vəziyyəti səciyyələndirilir, sahənin ölkə ədəbiyyatında az tədqiq olunmuş maliyyə, kadr təminatı problemləri, bu sahədə dövlət siyasəti ilə xarakterizə olunur.

Azərbaycanın rabitə sahəsinin müasir infrastrukturu ötən əsrin 70-ci illərindən formalaşmağa başlamışdır. Həmin dövrə qədər respublikada rabitə sferası və rabitə xidmətlərinin göstərilməsi səviyyəsi xeyli aşağı idi, sahənin maddi texniki bazası zəif inkişaf etmişdi, istehsal proseslərinin avtomatlaşdırılması səviyyəsi xeyli aşağı idi.

2005-2023-cü illərdə rabitə sahəsinin dinamikasında daimi olaraq yüksəliş müşahidə olundu, bu isə öz növbəsində rabitə sahəsinin ölkənin ÜDM-nin artım tempinə öz töhfəsini verdi.

Həmin dövrdə rabitə sahəsi illik gəlir gətirən sahəyə çevrildi, orta illik gəlirdə artım müşahidə olundu və 11,9% təşkil etdi. 2023-cü ildə rabitə sahəsinin ümumi həcmi 1,8 mlrd. manat olmuşdur, bu isə 2005-ci il ilə müqayisədə 5,2 dəfə çox olmuşdur.

Yerli telefon xidmətinin göstərilməsi ilə bağlı əldə edilən gəlir 2,8 dəfə artmış və 55 mln.man. təşkil etmişdir. Poçt rabitəsi sahəsində də artım müşahidə edilir. 2005-ci il ilə müqayisədə gəlir 7,0 dəfə artmış və 49 mln.man. olmuşdur.

Radiorabitə, radio yayımı, televiziya və peyk rabitəsindən əldə edilən gəlirlər 25,1 dəfə artmış və 150 mln.man. təşkil etmişdir.

Rabitə sahəsinin gəlirlərinin artmasına səbəb xarici və daxili investisiyaların cəlb edilərək burada müəyyən irəliləyişlərin, inkişafın əldə edilməsi ilə bağlıdır. 2023-cü ildə sahə müəssisələrinin əsas

---

[4] *Rəhmanov.F.P. Sosial Sfera və Sosial Siyasət. Dərs Vəsaiti, "MSV NƏŞR",Bakı 2021, səh-436.*

kapitalına 376,4 mln.man ölkə daxili investisiya qoyulmuşdur, bu göstərici 2005-ci il ilə müqayisədə 6,2 dəfə çoxdur.

Təhlil olunan dövr illəri üzrə xarici investisiyaların rəqəmləri belə müşahidə olunur: 2005-ci ildə 17,8 mln. man., 2021-ci ildə 19,8 mln. man., 2022-ci ildə 38,7 mln. man, 2023-cü ildə isə bu rəqəm 13.8 mln. man olmuşdur.

Hal-hazırda rabitə sahəsində 33052 nəfər çalışır, bu göstəricini turizm sahəsində (23,5 min nəfər), elektroenergetika və qaz təchizatı (27,2 min nəfər), inzibati xidmətlərdə (26,1 min nəfər) çalışanlar ilə müqayisə etmək olar. [5]

Cədvəl 1-də son illərdə rəsmi statistikaya əsaslanaraq respublikada rabitə xidmətlərinin strukturu verilmişdir. Cədvəlin araşdırılması belə bir qənaətə gəlməyə əsas verir ki, son illərdə telefon və sənəd rabitəsinin xüsusi çəkisi sürətlə azalmış, bunun əksinə olaraq mobil rabitə və internetdən istifadə durmadan artmışdır.

**Cədvəl 1. 2015-2023-cü illərdə rabitə xidmətlərin strukturu yekuna nisbətən, faizlə**

| | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Cəmi | **100,0** | **100,0** | **100,0** | **100,0** | **100,0** |
| Poçt | 2,1 | 2,4 | 2,6 | 2,9 | 2.4 |
| sənədli elektrik rabitəsi | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0.1 |
| şəhərlərarası və beynəlxalq telefon rabitəsi | 1,1 | 0,4 | 0,2 | 0,2 | 0.2 |
| şəhər-kənd telefon rabitəsi | 4,6 | 3,1 | 3,1 | 3,0 | 3.0 |
| radio rabitə, teleradio yayımı və peyk rabitəsi | 1,0 | 3,0 | 2,6 | 2,4 | 1.9 |
| mobil telefon rabitəsi | 84,7 | 79,5 | 78.0 | 76.2 | 75.1 |
| Internet | 4,2 | 9,0 | 11,4 | 13,5 | 15.5 |
| Data xidməti | 0,9 | 2,1 | 1.6 | 1,0 | 0.8 |
| digər xidmətlər | 1,3 | 0,4 | 0,4 | 0,7 | 1.0 |

*Mənbə: ADSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdir*

Beləliklə, təhlil göstərir ki, Azərbaycan telekommunikasiya bazarı indiki dövrdə rəqabət mübarizəsi şəraitində mənfəətli və sürətlə inkişaf edən ən dinamik bazarlardandır.

İşdə qeyd edilir ki, ölkəmizdə rabitə bazarını iqtisadiyyatın digər sahələrindən fərqləndirən xüsusiyyətləri vardır. Bunlar

---

[5] *Azərbaycanın Statistik Göstəriciləri // Statistik məcmuə. – Bakı: – 2023, – 725 s.*

aşağıdakılardır:

- yüksək artım tempi;
- təklif və təqdim edilən xidmətlərin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksək olması;
- şirkətlərin sayının kəskin surətdə artması və bunun nəticəsi olaraq rəqabətin kəskinləşməsi;
- praktiki olaraq telekommunikasiya xidmətləri təklif edən bütün şirkətlər kapitalın mənsubiyyətinə görə - qarışıq, fəaliyyət dairəsinə görə - milli şirkətlərdir;
- ölkədə iri telekommunikasiya avadanlığı istehsal edən şirkətlərin mövcud olmaması da diqqəti cəlb edir.[6]

Bununla yanaşı, qeyd etmək lazımdır ki, ölkədə regionlar üzrə telekommunikasiya sektoru qeyri bərabər inkişaf etmişdir.

**3. Respublikanın rabitə sahəsində bazar proseslərinin tənzimlənməsi mexanizmləri**

Dissertasiyada dövlət və bazar strukturlarının qarşılıqlı fəaliyyətinin, rəqabət siyasətinin, respublikada rabitə sahəsinin tənzimlənməsinin aktual məsələlərinə baxılır.

İşdə qeyd edilir ki, rabitə sahəsinin davamlı inkişafının əldə edilməsi istiqamətində iqtisadi siyasət dövlətin sərəncamında olan, iqtisadi proseslərə və təsərrüfat fəaliyyəti agentlərinin davranışına təsir göstərən alətlər paketi, mexanizm və vasitələr kompleksinin köməyi ilə həyata keçirilir, o cümlədən: qanunlar, dövlət başçısının fərmanları, hökumətin normativ aktları, dövlət məqsədli proqramlar, cari əməliyyat sərəncamları, dövlət orqanlarının qərarları.

Dissertasiyada göstərildiyi kimi, bütün bu tədbirlər, cəm halında, biznesin inkişafı üçün sinergetik effekt yaradır, ölkədə əlverişli işgüzar mühitin yaranmasına rəvac verir.

Rabitə sahəsinin reallıqları baxımından çıxış etdikdə qeyd etmək lazımdır ki, burada bazar və dövlət tənzimləyicilərinin nisbət problemi sahənin təyinatı, onun milli iqtisadiyyatdakı yeri və rolu, əhəmiyyəti, formalaşmış təsərrüfat mexanizmi və onun imkanları, yeni fəaliyyət

---

[6] *Əliyev, Ə.B. Xidmət sahələrinin iqtisadiyyatı. Dərs vəsaiti. / Ə.B.Əliyev. – Bakı: "Təhsil", –2017, – 136s.*

şəraitinə hazırlığı səviyyəsi və iqtisadi münasibətlərin liberallaşdırılması səviyyəsindən çıxış edərək həll olunmalıdır.

Azərbaycan Respublikasında məqsədyönlü siyasətin reallaşdırılması nəticəsində rabitə sahəsi yeni inkişaf mərhələsinə daxil oldu. Ölkədə İKT sahəsi üzrə mühüm və əhəmiyyətli infrastruktur formalaşdı, rabitə sahəsi və informasiya texnologiyalarının inkişaf etdirilməsi ilə bağlı bir sıra dövlət proqramları qəbul olundu.

Azərbaycan Respublikasında idarəetmə orqanları tərəfindən əsas istifadə edilən rabitə bazarına əsas təsir mexanizmi məqsədli-proqramların hazırlanması ilə həyata keçirilir. Müstəqillik illərində bır sıra irimiqyaslı məqsədli Dövlət proqramları reallaşdırılmışdır və hal-hazırda reallaşdırılması davam edən belə proqramlar mövcuddur. Həmin proqramlarda rabitə sahəsinin inkişaf etməsi vəzifələri öz əksini tapmışdır.

Bunlar hər şeydən öncə “Regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramları”, “Yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, həmçinin konseptual və strateji xarakterli dövlət sənədləri, məsələn “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişaf etməsinin Strateji Yol Xəritəsi”, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı kimi mühüm dövlət sənədləri və proqramlarıdır.

Hər bir mərhələ üçün rabitə sahəsi və digər iqtisadi, sosial sahələrin qarşısında İKT-nin tətbiq edilməsi ilə iqtisadi səmərəliliyin və sosial-iqtisadi effektlərin yüksəldilməsi tədbirləri müəyyənləşdirilir. Həmin tədbirlər içərisində respublika əhalisinə göstərilən rabitə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və həmin xidmətlərdən əhalinin istifadə imkanlarının artırılması ilə bağlı tədbirlər xüsusi yer tutur.

Təhlillər göstərir ki, idarəetmə strukturları, xüsusən də proqramlar hazırlayan strukturlar şəraitin öyrənilməsi ilə bağlı monitorinqlərin təşkilinə o qədərdə diqqət yetirmirlər. Nümunə üçün qeyd etmək lazımdır ki,

rabitə sahəsi ilə bağlı hesabatlarda fraqmentlərə rast gəlmək mümkündür, burada sahə haqqında kifayət qədər informasiya öz əksini tapmamışdır.

Bu səbəbdən də rabitə sahəsinin daha da inkişaf etməsinin cəmiyyət və dövlət üçün əhəmiyyətini nəzərə alaraq rabitə sahəsi üçün vahid monitorinq sisteminin yaradılmasına kəskin ehtiyac duyulur.

**4. Rabitə sahəsinin inkişaf konsepsiyası və onun reallaşdırılması istiqamətləri**

Dissertasiyada rabitə sahəsinin tənzimlənməsinin səmərəliliyinin artırılmasının obyektiv zərurəti diqqət mərkəzinə çıxarılır. Bununla əlaqədar, bu sferada innovasiya istiqamətli uzunmüddətli proqramların əsası kimi, rabitə sahəsinin inkişaf Konsepsiyasının işlənib hazırlanmasının məqsədəuyğunluğu əsaslandırılır.

Azərbaycan Respublikasında rabitə sahəsinin səmərəli inkişaf etməsi üçün xüsusi və müvafiq konsepsiyanın hazırlanmasına ehtiyac vardır.

Yeni konsepsiyanın hazırlanmasını zəruri edən bir sıra obyektiv şərtlərin mövcudluğu dissertasiyada əsaslandırılır. Birincisi bazar transformasiyası şəraitində rabitə xidmətləri əmtəə formasını almışdır, yəni azad alqı-satqı obyektinə çevrilmişdir. Digər tərəfdən təhlillər göstərdi ki, xidmətlər sənayesini Azərbaycanda hələ formalaşmaqda olan sahə kimi xarakterizə etmək olar. Bütün bu aspektlər dövlətin qeyd edilən inkişaf prosesinə ölçülüb-biçilmiş, kompleks şəklində yanaşmasını tələb edir və müvafiq olaraq işlənilib hazırlanmış xüsusi konsepsiyaya əsaslanmalıdır.

Konsepsiyanın əsas elementləri – dövlətin rabitə sahəsində strategiyasının hazırlanması və həyata keçirilməsi, onun prioritetlərinin və istiqamətlərinin bütün strategiya və prioritetlər məcrasında müəyyənləşdirilməsi kimi diqqəti cəlb edir.

Konsepsiyanın hazırlanmasında məqsəd - respublikada rabitə sahəsinin uzun müddətli perspektivdə inkişaf etdirilməsinin strateji istiqamətləri və prioritetlərinin müəyyənləşdirilməsi, dövlət hakimiyyəti orqanlarının fəaliyyətini planlaşdırmağa və koordinasiya etməyə imkan yaradan prinsip və tədbirlərin müəyyənləşdirilməsidir. Qeyd etmək lazımdır ki, bütün bunlar Konsepsiyada təsbit olunmuş məqsədlərə nail olunması üçün Azərbaycan Respublikasında rabitə təşkilatlarına və rabitə bazarlarına tənzimləyici təsirlər göstərir. Hesab edirik ki, Azərbaycan Respublikasında rabitə sahəsinin inkişaf

konsepsiyasına aşağıdakı müddəalar daxil olmalıdır (bax sxem 3).




**Sxem 3. Rabitə sahəsinin inkişafı Konsepsiyasının təklif edilən modeli**

*Mənbə: Araşdırma nəticəsi olaraq müəllif tərəfindən tərtib edilib*

Rabitə sahəsinin inkişaf etdirilməsi konsepsiyası, dövlət orqanları ilə rabitə operatorları arasında səmərəli qarşılıqlı münasibətlərin qurulmasına xidmət edən alət kimi diqqəti cəlb edir. Həmin alət vasitəsi ilə İKT və rabitə sahəsində ən vacib və birinci dərəcəli sosial əhəmiyyətli layihələrin reallaşdırılması, eyni zamanda dövlət-özəl sektor tərəfdaşlığının yaradılması mümkündür.[7]

[7] Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı.AR Prezidentinin Sərəncamı// Bakı, 28 avqust 2023.

Rabitə sahəsində konsepsiyanın reallaşdırılması dövlət tənzimlənməsi mexanizmini təkmilləşdirməyə imkan verir, bütün bunlar isə öz növbəsində rabitə xidmətləri bazarının inkişafına; ölkə iqtisadiyyatına əlavə investisiyaların cəlb edilməsinə; əhalinin və sahibkarların rabitə xidmətlərinin keyfiyyətinə olan tələbatlarının təmin olunmasına; rabitə operatorlarının səmərəli fəaliyyəti üçün şəraitin yaradılmasına; rabitə bazarında rəqabət bazarının daha da inkişaf etməsinə; bütün rabitə operatorları üçün bərabər şəraitin yaradılmasına, sahəyə yeni texnologiyaların tətbiq edilməsinə xidmət edir.

**5. Rabitə sahəsinin inkişaf göstəricilərinin proqnozu**

İşdə, respublikada rabitənin inkişaf proqnozu verilir, bu sahədə struktur islahatlarının əsas istiqamətləri müəyyənləşdirilir.

Respublikada rabitə sahəsi göstəricilərinin proqnozunun hazırlanması bu sahənin inkişaf perspektivlərini təsəvvür etməyə imkan verir.

Bizim tərəfimizdən aparılan tədqiqat işində son illərdə rabitə sahəsində baş verən proseslərin ətalətli davamı ehtimal edilir. Bu səbəbdən də iqtisadi inkişafın göstəriciləri dinamikası, həmçinin rabitə sahəsinin inkişaf resursları ilə bağlı göstəriciləri ekstrapolyasiya olunur.

Proqnozun reallaşdırılması ssenarisi çərçivəsində ancaq rabitə sahəsinin inkişafına əngəl törədən problemlərin həll edilməsi və sahənin uzun müddətli perspektivdə inkişaf yolları araşdırılır.

Proqnozda rabitə sahəsinin respublikada inkişaf etməsi üçün əhəmiyyətli addımların atılması nəzərdə tutulur. Bundan ötrü, iqtisadiyyatın miqyaslı informatizasiyası şəraiti fonunda sahənin dövlət dəstəyi sistemi tələb olunur.

Proqnoz hesablamaları ekonometrik modellər vasitəsi ilə həyata keçirilir, gələcəkdə rabitə sahəsinin inkişaf perspektivi ilə bağlı prosesin sxemini tərtib etməyə imkan yaradır (sxem.4).

Burada, həlli tələb olunan başlıca problemlər haqqında, həmçinin, proqnozlaşdırmanın son məqsədinə nail olmasını təmin edən mərhələli vəzifələr barədə əyani təsəvvür yaranır.

Sxematik olaraq rabitə sahəsinin proqnozunu bir-biri ilə sıx bağlı olan 5 funksional blokda təqdim etmək olar, bu bloklarda proqnozun spesifik vəzifələri həll olunur:




**Sxem 4. Rabitə sahəsi xarakteristikalarının proqnoz hesablamalarının blok-sxemi**

*Mənbə: Araşdırma nəticəsi olaraq müəllif tərəfindən tərtib edilib*

1. Demoqrafiya
2. İstehsal
3. Xidmət
4. Rabitə sahəsi
5. Rabitə sahəsinin ayrı-ayrı sektorları

Birinci blokda ölkə əhalisinin gələcək perspektivdə kəmiyyəti hesablanır.

İkinci blokda ÜDM-in perspektiv ölçüsü və həcmi müəyyənləşdirilir.

Üçüncü blokda modelləşdirmə aparılır, xidmətlər sferasının perspektivdə həcmi hesablanır.

Dördüncü blokda rabitə sahəsinin proqnoz hesabları həyata keçirilir.

İlk dörd blokun parametrləri üzrə proqnoz hesablamalar imitasiya rejimində rabitə sahəsində qəbul edilən qərarların rabitə sahəsinə təsirini qiymətləndirməyə imkan yaradır. Göstərilən blokların proqnoz göstəricilərinin nəticələri iqtisadi inkişafın qanunauyğunluqlarını bir-biri ilə uzlaşdırmağa, rabitə sahəsinin inkişaf etməsinin resurs imkanlarını müəyyənləşdirməyə imkan yaradır.

Beşinci blokda məcmu iqtisadi göstəricilər birləşdirilir, həmin göstəricilər rabitə sahəsinin həcmi və ayrı-ayrı seqmentləri arasında qarşılıqlı əlaqəni xarakterizə etməyə imkan yaradır: poçt rabitəsi, sənədlər rabitəsi, şəhərlərarası və beynəlxalq rabitə, telefon rabitəsi, radio-televiziya yayımı və peyk rabitəsi, mobil rabitə, internet.

Proqnoz hesablamaları bu və ya digər dərəcədə 2012-2023-cü illərdəki zaman cərgələri üzrə göstəricilərin təhlilinə əsaslanmışdır. Təhlillər göstərdi ki, bütünlükdə araşdırılan göstəricilərin dinamikası dayanıqlı meyllərlə xarakterizə edilir və bu səbəbdən də biz araşdırılan dinamik cərgələrə riyazi üsullar, aproksimasiya, perspektivdə ekstrapolyasiya üsullarını tətbiq etmək imkanı əldə etdik.

Proqnozların reallaşdırılmasının nəticəsi Azərbaycan Respublikasında yeni keyfiyyətdə rabitə sahəsinin inkişaf etməsinə, dünyada inkişaf etmiş dövlətlərin rabitə sferası ilə müqayisə ediləcək və rəqabət apara biləcək bir sahənin formalaşmasına səbəb olacaqdır. Müvafiq olaraq rabitə sahəsinin məhsul və xidmətlərinə respublikada xalq təsərrüfatının digər sahələrinin də tələbi artacaqdır, bu isə öz növbəsində iqtisadi inkişafın sürətləndiricisi, Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyini yüksəldən mühüm amil kimi çıxış edərək, ölkə əhalisinin həyat səviyyəsinin yüksəlməsinə, respublikanın regionlarının inkişaf etməsinə, respublikanın geostrateji mövqeyinin möhkəmlənməsinə səbəb olacaqdır.

## 6. Rabitə xidmətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üzrə metodik və praktiki təkliflərin əsaslandırılması

İşdə, rabitə xidmətləri bazarının tənzimlənməsinin təkmilləşdirilməsinin başlıca vəzifələri göstərilir, bunların həllinə dair konkret tövsiyələr verilir, rabitə seqmentlərində ilk növbəli fəaliyyət proqramı, respublikada rabitə sahəsinin inkişaf etdirilməsi siyasətinin əsas istiqamətləri və onların reallaşdırma mexanizmləri müəyyənləşdirilir.

Rabitədə dövlətin tənzimlənmə metodlarının lazımi səviyyəyə çatdırılması, müasirləşdirilməsi önəmli vəzifədir, rəqabət mühitinin inkişafına yönəlməlidir. Mütərəqqi texnoloji yeniliklərin və innovasiyaların tətbiqi məsələsinin həlli zamanı mərkəzi, yerli icra hakimiyyəti orqanlarının, habelə təsərrüfat subyektlərinin maraqları qarşılıqlı surətdə nəzərə alınmalıdır.

Müəllif, rabitə sahəsinin tənzimlənməsinin təkmilləşdirilməsinin aşağıdakı məqsədlərini vurğulayır. (bax: sxem 5)

**Rabitə sahəsinin tənzimlənməsinin təkmilləşdirilməsinin başlıca məqsədləri**

- rabitə xidmətləri çeşidinin artırılması, inkişaf etmiş ölkələrdə müvəffəqiyyətlə inkişaf edən yeni xidmət növlərinin Azərbaycanda tətbiqi
- sertifikatlaşdırma və standartlaşdırma prosedurlarının optimallaşdırılması ilə xidmətlərin keyfiyyətinin yüksəldilməsi
- rabitə sahəsi müəssisələrinin yerləşdirilməsində ərazi disproporsiyalarının aradan qaldırılması
- sahənin inkişafına yönələn investisiyaların (o cümlədən, xaricdən) cəlb edilməsi üçün şəraitin yaradılması
- informasiya bazarında münasibətləri tənzimləyən normtiv-hüquqi bazanın təkmilləşdirilməsi
- proteksionizm siyasəti (investisiya, gömrük, vergi siyasətinin dəyişilməsi; ölkədə istehsal olunan proqram təminatını intellektual mülkiyyət kateqoriyasına aid edərək, məhsulun satış vergisinin azaldılması yaxud qismən ləğvi)
- milli telekommunikasiya məhsulunun rəqabət qabiliyyətinin artırılması (dövlət sifarişlərinin yerinə yetirilməsi üçün açıq müsabiqə, sertifikatlaşdırma, lisenziyalaşdırma yolu ilə); dünya bazarına irəliləyiş
- respublikanın sosial-iqtisadi inkişafının müasir mərhələsinin tələblərinə uyğun olaraq, sahə müəssisələrinin innovativ fəaliyyətinin artırılması

**Sxem 5. Rabitə sahəsinin tənzimlənməsinin təkmilləşdirilməsi məqsədləri**

*Mənbə: Araşdırma nəticəsi olaraq müəllif tərəfindən tərtib edilib*

Təkmilləşdirməsi zəruri olan digər tənzimlənmə mexanizmləri qismində aşağıdakıları göstərmək olar:

-Azərbaycan Respublikasında telekommunikasiya infrastrukturunun inkişafına əngəl törədən inzibati əngəllərin aradan qaldırılması;

- Azərbaycan Respublikasında dövlət orqanları ilə biznes birliklərinin investisiya layihələrinin hazırlanması, investisiya layihələrin respublikanın ərazi prinsipi üzrə inkişaf planları ilə uzlaşdırılması istiqamətində qarşılıqlı fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsi;

- investisiya mühitinin formalaşdırılması, investisiya cəlbediciliyinin yüksəldilməsi, respublikada telekommunikasiya infrastrukturunun inkişafı və fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılması, o cümlədən elektron formada dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi;

-ölkədə İKT infrastrukturunun inkişaf etdirilməsi üçün müəyyən olunmuş qaydada rabitə operatorlarına Azərbaycan Respublikasında dövlət mülkiyyətində olan torpaq sahələrinin verilməsi, onlar üçün bələdiyyə mülkiyyətində olan torpaq sahəsinin ayrılmasına, ələlxüsus, investisiya layihələrinin kənd yerlərində reallaşdırılması zamanı, dəstək verilməsi;

- poçt rabitəsi təşkilatlarına bələdiyyə təsisatları ərazisində poçt rabitəsi obyektlərinin, qeyri-yaşayış tikililəri və sahələrdə poçt rabitəsi və digər rabitə obyektlərinin yerləşdirilməsinə kömək göstərilməsi;

- kənd yerlərində multiservis optik şəbəkələri və naqilsiz geniş zolaqlı şəbəkənin qurulmasına kompleks yanaşmanın tətbiqi;

-Azərbaycan Respublikasının strateji məqsədlərinə nail olunmasına xidmət edən prioritet investisiya layihələrinə, xüsusən də regionlarda bu tip layihələrə dövlət dəstəyinin göstərilməsi, dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin formalaşdırılması.

Müəllif, rabitə xidmətləri sahəsində məqsəd oriyentirlərinə nail olunma səviyyəsi barədə qənaətləri ifadə edir, xarici mühitin ayrı-ayrı amillərinin rabitə təşkilatlarının təsərrüfat fəaliyyəti nəticələrinə təsiri səviyyəsini qiymətləndirir, həmçinin, təklif edilən tədbirlərin bu sahənin müxtəlif seqmentlərində mümkün nəticələri barədə əsaslandırılmış mülahizələr söyləyir.

**Dissertasiyanın əsas nəticələri aşağıdakı nəşrlərdə əks etdirilmişdir:**

1. Həşimova A.Ç. Rabitə sahəsinin tənzimlənməsi mexanizmlərinin təkmilləsdirilməsi məsələləri, “Kooperasiya” elmi-nəzəri jurnal, №4 (51)-2018, Bakı, səh.196-203

2. Həşimova A.Ç. Azərbaycanda rabitə sahəsinin normativ-hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)-Elmi Xəbərləri, iyul-sentyabr 2018, Bakı, s.82-93

3. Həşimova A.Ç. Rabitə sahəsinin tənzimlənməsində beynəlxalq təcrübə. AMEA İqtisadiyyat İnstitutu. "Elmi əsərlər"-№2, 2018, s.204-211

4. Həşimova A.Ç. Rabitə xidmətləri bazarının kompleks tədqiqatı problemləri.. "Azərbaycan beynəlxalq nəqliyyat sistemində: məqsədlər və perspektivlər" I Beynəlxalq elmi və praktiki konfrans, Bakı: 2018, səh:213-219

5. Həşimova A.Ç. Rabitə xidmətlərinin sahə xüsusiyyətləri. "Azərbaycan beynəlxalq nəqliyyat sistemində: məqsədlər və perspektivlər" I Beynəlxalq elmi və praktiki konfrans, Bakı, 2018, səh:241-245

6. Həşimova A.Ç. Rabitə xidmətləri bazarının dövlət tənzimlənməsi problemləri. "İqtisadiyyat və idarəetmədə davamlı inkişaf: Hədəflər və Perspektivlər", Beynəlxalq elmi və praktiki konfrans, Bakı, 2018, səh:60-63

7. Həşimova A.Ç. Azərbaycan Respublikasında rabitə sahəsinin inkişaf konsepsiyası. "Modernləşmə şəraitində milli iqtisadiyyatın inkişafının aktual problemləri və perspektiv istiqamətləri". Respublika elmi konfransının materialları. 10 oktyabr 2018 -ci il, Bakı, səh:54-58

8. Həşimova A.Ç. Azərbaycan Respublikasının rabitə sisteminin inkişafı məsələləri. "Müasir dövrdə effektiv idarəetmənin problemləri" Respublika elmi-praktiki konfransı" 2018-ci il, Bakı, səh:38-41

9. Həşimova A.Ç. Azərbaycanda rabitənin inkişafının tənzimlənməsinin təşkilati-iqtisadi problemləri. "İqtisadi artım və ictimai rifah" mövzusunda beynəlxalq elmi konfransı. 2018-ci il, Bakı, səh:460-465

10. Həşimova A.Ç. Respublikada rabitə sahəsinin inkişaf konsepsiyası və onun reallaşdırılması. "Əmək və Sosial Problemlər" elmi əsərlər toplusu Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzi. 2018-ci il, Bakı, səh:109-116

11. Гашимова А. Ч. Современные тенденции развития отрасли связи в Азербайджане. Экономика и предпринимательство, Москва, 2019, səh:451-455

12. Həşimova A.Ç. Azərbaycan Respublikasında rabitə sahəsinin inkişafında Heydər Əliyevin rolu. ”Gənc tədqiqatçıların II Respublika elmi-praktik konfransının materialları” 2019-cu il, Bakı, səh:159-161

13. Həşimova A.Ç. Rabitə sahəsinin təşkilati-iqtisadi xüsusiyyətləri. “Sənayenin müasir vəziyyəti və inkişaf problemləri: texnoparkların və sənaye məhəllələrinin ölkənin iqtisadi inkişafına təsiri” mövzusunda Respublika elmi-praktiki konfransı. 2019-cu il, Bakı, səh:113-115

14. Həşimova A.Ç. Azerbaycan'da iletişim endüstrisinin mevzuatı ve yasal yönetmeliğinin geliştirilmesi.III. Uluslararası Battalgazi Bilimsel Çalışmalar Kongresi. 2019-cu il, Türkiye Malatya, səh:1048-1051

15. Həşimova A.Ç. Azərbaycan Respublikasinda rabitə sektorunun dövlət tərəfindən tənzimlənməsi məsələləri. II. Uluslararası 19 Mayıs Yenilikçi Bilimsel Yaklaşımlar Kongresi. 2019-cu il, Samsun Türkiye, səh:1142-1147

16. Həşimova A.Ç. Azərbaycan Respublikasının davamlı inkişafinda rabitənin rolu. “Azərbaycan şairi İmadəddin Nəsiminin 650 yubileyinə həsr edilən doktorantların və gənc tədqiqatçıların XXIII Respublika elm konfransı”.2019-ci il, Bakı:2019, səh:289-290

17. Həşimova A.Ç. Rabitə xidmətləri bazarının kompleks tədqiqatı problemləri. “Journal of Baku Engineering University- Economics and Administration 2” Volume3 Number1 Bakı 2019, Səh.69-75

18. Həşimova A.Ç. “Forecasting of the communication services of the Azerbaijan Republic for 2020-2025” International Paris Conference On Social Sciences – IV Paris Fransa 2020 (ISBN-978-605-7811-70-7) , səh:12-21

19. Həşimova A.Ç. “Analysıs of ınformatıon and communıcatıon servıces ın the Republıc of Azerbaıjan” International Paris Conference On Social Sciences – IV Paris Fransa 2020 (ISBN-978-605-7811-70-7) , səh:22-27

20. Həşimova A.Ç. “Azərbaycanda Rabitə Xidmətlərinin Təhlili Və Qonşu Ölkələrlə Müqayisəsi” II. İqtisadiyyat və İdarəetmə Sahəsində Magistr və Doktorantlarin Beynəlxalq Elmi Konfransı. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı 29-31 May 2020, səh:1995-1999

21. Həşimova A.Ç. Azərbaycanın rabitə sahəsinin 2005-2020-ci illər arası təhlili. “Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan

azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" Beynəlxalq elmi-praktiki konfransın materialları. 2021-ci il, Bakı, səh: 133-135

22. Həşimova A.Ç. Azərbaycan Respublikasında rabitə sferasının inkişafina sosial aspektdən baxış. "Journal of Baku Engineering University- Economics and Administration " Volume5 Number 1 Bakı 2021, Səh.65-76

23. Həşimova A.Ç. "Management of digitisation processes in the field of social services" Sumy State University.Marketing and Management of Innovations. Ukraine 2023, Vol 14. (№2) Səh.173-184

24. Həşimova A.Ç. "Reconstruction Of Communication Infrastructure In Karabakh, An Integral Part Of Azerbaijan" EU 2 nd İnternational Conference On Health, Engineering and Applied Sciences. Belgrade Serbia 2023, səh: 70-82



Dissertasiyanın müdafiəsi “ 06 ” noyabr 2024-cü il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan:  AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin www.unec.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “04” oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.09.2024
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (36994 işarə). Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün:* capevi@internet.ru / *(+99455) 201-2809*